# Avropa İttifaqının məkrli "missiyası"

## Bu, regionun təhlükəsizliyinə təhdid yaradır

**Əməlləri sözləri ilə düz gəlməyənlərə sonunda inanan, etimad göstərən olmur. Çünki özlərinə qarşı inamı itirirlər. Bir sıra beynəlxalq təşkilatların, bəzi Qərb ölkələrinin də dünyaya "beynəlxalq hüquq", "insan haqları" və "demokratiya" "dərsləri" keçmək cəhdləri artıq ifşa olmaqdadır. Başqalarına verdiyi "dərslər"dən özü dərs çıxarmayan Avropa İttifaqı (Aİ) da eyni aqibəti yaşayır.**



Nüfuzlu beynəlxalq təşkilatların məqsədi, missiyası dünyada sülhün bərqərar olmasına, sabitliyin yaranmasına, münaqişəyə rəvac, müharibəyə səbəb olacaq məsələlərin həllinə, problemlərin aradan qaldırılmasına dəstək olmaqdır. Çünki qarşıdurmaların yaranması, savaşların meydana çıxması bəşəriyyətin ən böyük bəlasıdır, dünya üçün təhdiddir. Qalib də, məğlub da müharibədə itkilər verir. Həlak olanlar isə daha çox döyüş bölgələrində vuruşan gənclər olur. Müharibə ölkələrə ziyan vurur, xalqlara fəlakət gətirir. Odur ki, sülhə yol varsa, ondan kənar durmaq, münaqişə yaratmağa cəhd göstərmək, müharibəyə sürükləmək bütövlükdə insanlığa qarşı düşmənçilikdir.

Azərbaycan dövləti və xalqı sülhü, əmin-amanlığı hər zaman öz amalı, qayəsi, məqsədi bilib, regionda ədalətli və davamlı sabitliyini bərqərar olmasına səy göstərib.

1980-ci illərin axırları, 1990-cı illərin əvvəllərində erməni quldurları yenidən ərazi iddiası ilə hucum edərək Azərbaycana fəlakətlər gətirdilər. Topaqlarımızın iyirimi faizini işğal etdilər. Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatlar işğalçını da, işğala məruz qalanı da tanıdıqları, bildikləri halda özlərini korluğa, karlığa, lallığa vurdular. Erməni cəlladları Azərbaycanın Xocalı, Ağdaban, Meşəli, Qaradağlı, Başlıbel və daha neçə-neçə ərazisində qətliamlar, soyqırımları törətdilər. Nə 1980-ci illərin sonlarından Qərbi Azərbaycanda, Qarabağda və Şərqi Zəngəzurda yaratdıqları münaqişə alovlarını körükləyəndə, nə də həmin qədim yurd yerlərindən əsl sakinlərini qovanda qəddar emənilərə "durun" deyən oldu. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur əraziləri otuz ilə yaxın Ermənistanın işğalı altında qaldı. Bir sıra beynəlxalq təşkilatlar və dünyanın aparıcı ölkələri ədalətli mövqe nümayiş etdirmədilər. Onların ikili standartlar siyasəti, işğalçı Ermənistana qol-qanad gərmələri, havadarlıq etmələri Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək təkliflərinin və bu istiqamətdə göstərdiyi səylərin reallaşmasına ən böyük maneə oldu. Məqsədləri müxtəlif vasitələlərlə işğal müddətini uzatmaq idi. Güman edirdilər ki, bununla Azərbaycanı Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğalı ilə barışdıra biləcəklər.

Ancaq dövlətimimizin və xalqımızın mövqeyi aydın və qətiyyətli idi. Azərbaycan xalqı işğalla barışmayacağını Prezident İlham Əliyev yüksək kürsülərdən dönə-dönə bəyan etdi.

2020-ci ilin payızında başlayan İkinci Qarabağ müharibəsinə səbəb də Ermənistanın təxribatları oldu. Və qarşısında hər döyüşçüsü bir qəhrəman olan, müasir silah-sursatla, hərbi texnika ilə təchiz edilmiş peşəkar Azərbaycan Ordusunu gördü. Bu, müzəffər ordu işğalçı Ermənistanın silahlı qüvvələrini 44 gün ərzində ağır məğlubiyyətə uğratdı, Qarabağ və Şərqi Zəngəzur torpaqlarını düşmən işğalından azad etdi.

Avropa İttifaqı kimi beynəlxalq təşkilatlar gördülər ki, Azərbaycan dövləti öz ərazilərində işğala son qoymağa da, onu qorumağa da qadirdir. Həm də Ermənistan kimi özünə havadarlar axtarıb tapmaqla, onların ətəklərinə sığınmaqla deyil, öz gücü, qüvvəsi ilə.

Müharibə bitdi. Azərbaycan ədaləti bərpa etdi, haqqı olanı işğalçıdan geri aldı. Və indi həmin ərazilərdə geniş tikinti, bərpa-quruculuq işləri həyata keçirilir. Erməni vandallarının otuz il müddətində dağıtdıqları, xarabaya çevirdikləri Qarabağ, Şərqi Zəngəzur yenidən qurulur.

Öz yoluna, məqsədinə sadiq olan Azərbaycan yenə sülhün bərqərar olmasına çalışır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin təşəbbüskarı məhz Azərbaycan tərəfi olub. Belə ki, sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplər Azərbaycan tərəfindən formalaşdırılıb və təqdim olunub. Azərbaycan tərəfi, həmçinin bunun əsasında sülh müqaviləsinin mətnini hazırlayıb.

Əgər Avropa İttifaqı kimi beynəlxalq təşkilatların əsl məqsədi iki ölkənin - Azərbaycanla Ermənistanın arasında sülh müqaviləsinin imzalanması, Cənubi Qafqazda sabitliyin möhkəmləndirilməsidirsə, o zaman ikili standartlardan, qərəzkarlıqlardan, riyakarlıqdan əl çəkməlidir, rəsmi İrəvanı silahlanmadan çəkinməyə, yubanmadan sülh sazişini imzalamağa çağırmalıdır.

Bu gün Ermənistana öz gələcəyi naminə silahlanma deyil, sülh lazımdır. Bunu Avropa İttifaqı kimi təşkilatlar Nikol Paşinyan hökumətindən də yaxşı bilirlər. Ancaq onlar Ermənistanın aqibətini deyil, öz maraqlarını düşünürlər.

Avropa İttifaqının Ermənistana "müşahidə missiyası" adı ilə kəşfiyyatçılar yerləşdirdiyi məlumdur. Ermənistanın Azərbaycanla sərhədindəki 200 nəfərlik müşahidə missiyasının mandatı 2027-ci il fevralın 19-dək uzadılıb. Həmin "müşahidə missiyası"nın üzvləri Azərbaycanla həmsərhəd ərazilərdə müşahidələrini davam etdirirlər. Avropa İttifaqının Ermənistandakı "müşahidə missiyası" adı ilə fəaliyyəti narahatlıq doğurur. Bu missiyanın fəaliyyətinin regionun təhlükəsizliyinə təhdid yaratdığını və Azərbaycanın maraqlarına uyğun olmadığını rəsmi Bakı dəfələrlə bəyan edib.

Vaxtaşırı binoklları ilə sərhədlərimizdə peyda olan, müşahidə adı altında kəşfiyyat aparan, casusluqla məşğul olan Aİ missiyası Ermənistan silahlı qüvvələrinin sülh danışıqların getdiyi bir vaxtda Azərbaycanın hərbi mövqelərini atəşə tutmalarına göz yumur. Həqiqəti görməzlikdən gəlib, Azərbaycanın guya Ermənistana hücum etməyə hazırlaşdığı barədə saxta məlumatlar yayır. Müharibə tərəfdarının Ermənistan olduğunu danmağa çalışır. Ancaq həqiqəti pərdələmək, faktları danmaq mümkün deyil. Haqlı da, haqsız da göz önündədir. Sonunda yenə böyük Zəfər həqiqətin, ədalətindir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 24 aprel (№81).- S.12.